-Gör mənim günümə bax da! Gör də, sən allah! Biri yellənir, biri dağıdır! Axxxxxxx! Kül onda oldu başıma ki, oxumadım. Axxxx, Bəşir, Bəşir! Səni nə deyim hələ, Bəşir! Niyə qoymadın oxuyum? Oxusaydım, mağıl indi....burda nə ölümüm vardı?! Yaxşı da səsim vardı! Mən də yellənərdim də, kimnən əskiyəm ki?

Yelləncəkdən aralanan cavan qadın gülə-gülə, nazlana-nazlana yaşıl kollar arasınca gedirdi. Qəribəydi ki, pişik də onun dalınca düşmüşdü. Süpürgəçi onların arxasınca tərs-tərs xeyli baxdı, bir neçə dəfə ah çəkəndən sonra süpürgəsini ağaca dayayıb yelləncəyə sarı yeridi. Sağa-sola boylandı, sonra oğrun-oğrun yuxarıya, yaxındakı hündürmərtəbəli binaların balkonlarına sarı baxdı; yelləncəyin dirəklərinin birləşdiyi dəmir çərçivənin qıraqlarını da unutmadı, istidən qupquru olmuş qara maşın yağının iyi dəydi burnuna, üç-gözünü əyib-elənmədi, əli ilə yelləncəyin dirəyinə toxundu, astadan tərpətdi, cırıldayırdı. Süpürgəçi bir anlıq tərəddüd elədi, sonra şıltaq gözəl arvadlar kimi işvəli-işvəli yelləncəyi özünə tərəf çəkib saxladı, ehtiyatla oturub yellənməyə başladı. Əvvəlcə üz-gözü əyildi, görünür, ya cırıltıdan, ya da asta yellənməkdən xoşu gəlmədi. Yelləncək yavaş-yavaş sürət götürdü. Süpürgəçi sağ ayağıyla təkan verdi, özünü daha bərkdən yellətməyə çalışdı. Deyəsən yavaş-yavaş xoşhallanırdı. "Nə yaxşı şeymiş yellənmək!" düşündü. O da cavan qadın kimi gözlərini yumdu. Ayaqlarını qaldırdı. Dümdüz bitişdirdi bir-birinə. Səhərin mehi onun tərləməmiş, lakin gündən qaralmış sifətini yalayırdı və o, bundan ləzzət almağa başladı.

Yelləncək daha bərkdən yelləndi. Qadın ayağıyla bir də təkan verdi. Bir də... bir də... hə...bir də... Elə bil kimsə arxadan onu itələyir, havaya qaldırıb endirirdi. Özündən asılı olmayaraq başladı qaqqıldamağa. Yelləncək o qədər sürət götürmüşdü ki, artıq cırıltı da kəsilmişdi, qadın xöşbəxtcəsinə gülürdü, şaqqanaq çəkirdi, qaqqıldayırdı, sonra yenə... Bü gülüşlərin ayrı tamı, ayrı ləzzəti vardı. Hə, hə, qadın gülüşlərinin ləzzəti hərəsi bir cürdü. Və birdən o ləzzətli gülüş səsləri dəhşətli çığırtı və vəngiltiylə kəsildi; necə oldusa, yelləncəyin dəmir dirəkləri qəflətən yerindən qopdu, süpürgəçi oturacaq qarışıq təkər kimi fırlanıb beş-altı metr aralıda yerləşən və üstündə bayaqkı zibil vedrəsi olan oturacağa çırpıldı. Çığırtıyla bərabər qorxunc bir vəngilti də qopdu. Bayaqkı pişik zibil vedrəsinin böyründən yerə sıçradı. Zərbə o qədər qüvvətli olmuşdu ki, pişiyi və vedrəni də yıxıtmışdı. Süpürgəçi qadın isə bir anlıq çığırıb arxası üstə yerə düşmüşdü.

Qadın istədi qalxsın, bacarmadı, ufuldadı, heysiz-heysiz inildəməyə başladı. Ağ pişik axsaya-axsaya, vəngildəyə-vəngildəyə oturacaqdan uzaqlaşmağa çalışırdı. Süpürgəçi hirsindən qəhərləndi, həqarətlə pişiyə baxdı. Ehmalca əlini tərpətdi, ətrafını aradı, çox da iri olmayan bir daş götürdü, böyrü üstə yavaşca çevrilib daşı pişiyin dalınca tulladı.

-Səni görüm...İgid öləsən! Vaşşşşş... Belim qırıldı!

Əlbəttə, daş pişiyə dəymədi. Pişik də heç qaçmadı, bir qədər uzaqlaşandan sonra kol dibində yerə çökdü və süpürgəçiyə baxa-baxa miyoldadı. Bu, miyoltu da deyildi - o, oxuyurdu, canavar kimi ulayırdı, at kimi fınxırır, inək kimi böyürürdü... sonra yenə oxuyurdu. Süpürgəçi qadının qarğışı bu dəfə daha sərt oldu, boğuq səslə: "Səni görüm yer oğurlasın!" pıçıldadı. Amma bilmək olmadı qarğışı kimə elədi - bir az öncə yelləncəkdən uzaqlaşan cavan qadına, yoxsa pişiyə...

*2016*

**Ədəbiyyat qəzeti.- 2017- ci il.- 28 yanvar.- S. 25.**